

Rəfi SALMANOĞLU

## Sərildi

Yelə döndüm, selə döndüm,
Baharda, qışda üyündüm,
Xırmanda dən tək döyüldüm,
Xəzan yoluma sərildi.

Dərd badəsi doldu, daşdı,
Ömrüm-günüm ucuzlaşdı.
Daha eşqim qara daşdı,
Xəzan yoluma sərildi.

Eşqimə inamım öldü,
Qönçəsi, gülü töküldü.
Arzum payıza büküldü,
Xəzan yoluma sərildi.

Rəfi dərdə tapmır dərman,
Belə verib tale fərman.
Məni ayaqladı zaman,
Xəzan yoluma sərildi.

## Gələsən

Vəfalı dağlara səfər edəsən,
Səfalı dağlara səfər edəsən.
Mənalı dağlara səfər edəsən,
Dağlardan bir şeir yazıb gələsən.

Çəndən adlayasan, duman keçəsən,
O buz bulaqlardan bir-bir içəsən.
Yaylaqların göy otunu biçəsən,
Dağlardan bir şeir yazıb gələsən.

Rəfi Salmanoğlu, dağlar canımdı,
Qartallar qıy vuran asimanımdı,
Dağların suları adım-sanımdı,
Dağlardan bir şeir yazıb gələsən.

## Bir gün

Allahı, dünyanı yorma,
Ona, buna tələ qurma.
Qeybət qırma, üzə durma,
Fələk səni gəzər bir gün.

Yalanı bayraq eləmə,
Xalqa qaş-qabaq eləmə.
Şəri yüz boyaq eləmə,
Fələk səni gəzər bir gün.

Zirvənin adına dəymə,
Rəfinin işini əymə.
Gəl şeytan libası geymə,
Fələk səni gəzər bir gün.

## Vətənim mənim

Kaş bir günəş olam Vətənə, elə,
Ömrü bənzədərəm bahara, selə.
Qoşulam küləyə, qoşulam yelə,
Ömrümə nur saça Vətənim mənim.

Gedib qarabağda torpaq əkərəm,
Mən yaşıl otlardan saray tikərəm.
Alnımın tərini şuma əkərəm,
Ömrümə nur saça Vətənim mənim.

Bir papaq tikərəm çiçəkdən, güldən,
Çələng toxuyaram sarı sünbüldən.
Bir orden taxaram Xarı Bülbüldən,
Ömrümə nur saça Vətənim mənim.

## A dağlar

Qartalın başım üstə,
Uçur yeyin, ahəstə.
Sən məndən şeir istə,
Hər gün yazım, a dağlar!

Hər gün yollarındayam,
Qeylü-qallarındayam,
Axar sularındayam,
Çəndə azım, a dağlar.

Rəfi Salmanoğluyam,
Candan sənə bağlıyam.
Zirvələri haqlıyam,
Dinə sazım, a dağlar.

Türküstan.- 2024.- 27 avqust-2 sentyabr, №32.- S.11.